# "İnterfax": "İlham Əliyev Qərb ölkələrini Azərbaycana böhtan atmaqda günahlandırıb"

***Rusiyanın məşhur "İnterfax" Agentliyi də Azərbaycan Prezidenti İlham Əliyevin COP29-un Liderlər Sammitinin açılış mərasimindəki çıxışına geniş yer ayırıb.***



интерфакс

В мире

Алиев обвинил страны Запада в клевете на Азербайджан как место проведения COP29

Prezidentdən sitat gətirən agentlik dərc etdiyi məqalədə yazıb ki, özünü müstəqil QHT adlandıranlar və bəzi siyasətçilər ölkəmiz haqqında daha çox dezinformasiyanın yayılması üçün sanki bir-biri ilə yarışa giriblər. O da, xüsusilə vurğulanıb ki, Azərbaycan COP29-a evsahibliyi edən ölkə kimi seçildikdən sonra hədəfə çevrildi və bu, qarayaxma kampaniyası idi.

Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, COP29-un ev sahibi seçildikdən sonra ölkəyə qarşı böhtan kampaniyası bir sıra Qərb dövlətləri tərəfindən yaxşı təşkil olunmuş aksiyadır: "Təəssüf ki, ikili standartlar, digər ölkələrdə mühazirələr oxumaq vərdişi və siyasi riyakarlıq bəzi siyasətçilərin, dövlətin nəzarətində olan QHT-lərin və KİV-in bəzi Qərb ölkələrində saxta xəbərlər hazırlamaq üsuluna çevrilib".

Azərbaycan.- 2024.- 14 noyabr (№ 250).- S.15.